# SAMUX: SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏR ÜRƏKAÇANDIR





Respublikamızın aqrar rayonlarından biri olan Samux rayonunda da, 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Rayon İcra Hakimiyyətinin, YAP Rayon Təşkilatının nümayəndələrinin, hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərləri və geniş ictimaiyyət nümayəndələri Heydər Əliyev parkına gələrək, Azərbaycanın xilaskarı, memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər qərənfillər qoyaraq, bir daha öz hörmət və ehtiramlarını bildirdilər. Sonra Yeni Azərbaycan Partiyası Samux rayon Təşkilatının zalında yığıncaq öz işinə başladı. İclası giriş sözü ilə açan **Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** respublikada gedən davamlı inkişafdan, rayonda aparılan abadlıq-quruculuq və layihələrdən ətraflı çıxış edərək, qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində səsləndirilən faktlar bir daha təsdiqlədi ki, müasir dövrdə dünyada baş verən hadisələr, siyasi qarşıdurmalar, neftin qiymətinin kəskin ucuzlaşması, maliyyə, siyasi və iqtisadi böhranlar Azərbaycandan da yan keçməyib. Ancaq dəfələrlə belə hadisələrin şahidi olsaq da, ölkəmiz hər dəfə yaranmış vəziyyətdən uğurla çıxıb. Dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilmiş strategiya və ölkədə həyata keçirilən yeni sosial, iqtisadi islahatlar əhalinin həyat səviyyəsinin yüksəldilməsinə öz təsirini göstərmişdir.

2016-cı ilin birinci yarısında respublikamızın bütün bölgələrində olduğu kimi, Samux rayonunda da yüksək nəticələr əldə edilmiş, tikinti-quruculuq işləri davam etdirilmişdir. Birinci yarımilin yekunu ilə bağlı görülmüş işlərin təhlili və proqnozlar göstərir ki, rayon iqtisadiyyatının inkişafındakı artım dinamikası davam etmişdir. Bu rayonun əsas statistik göstəricilərində də öz əksini tapmışdır. Belə ki, ümumi məhsul buraxılışının həcmi 6,6 faiz, sənaye 6,1 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 0,1 faiz, pərakəndə əmtəə dövriyyəsi 17,7 faiz və əsas kapitala yönəldilən investisiyaların məbləği 34,5 faiz, o cümlədən tikintinin həcmi 34,9 faiz artmışdır. 6 ay ərzində 597-si daimi olmaqla 1106 yeni iş yeri yaradılmışdır. Yaradılmış yeni iş yerlərindən 27-si Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon sahibkarlarına 15 layihə üzrə verdiyi 145,0 min manat güzəştli kreditin hesabınadır.

2016-cı ilin 6 ayı ərzində 227 ailə ünvanlı sosial yardımı almaq üçün Əhalinin Sosial Müdafiəsi Mərkəzinə müraciət etmişdir. Bunlardan 227 ailəyə sosial yardım təyin olunmuşdur ki, bu da aztəminatlı 989 nəfərin yaşayışına əhəmiyyətli dərəcədə kömək göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 18 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın yerinə yetirilməsi istiqamətində rayonda da müəyyən işlər görülmüşdür. Belə ki, 2016-cı ilin birinci yarısında rayonun Qarabağlar kəndində əhalinin içməli və məişət istifadəsi üçün su təchizatının yaxşılaşdırılması məqsədilə 4 küçədə su xətləri çəkilmiş 40 ədəd bulaq inşa edilmişdir. Lək kəndində su xətlərinin çəkilişinə və 32 ədəd bulağın inşasına başlanmışdır və işlər davam etdirilir.

Rayonun Qarayeri qəsəbəsi və Qovlarsarı kəndində 7 yaşayış binasında təmir işlərinə başlanılmış və hər biri 1040 m[2] olmaqla, ümumilikdə 7280 m[2] dam örtüyü yenisi ilə əvəz olunmuşdur. Hazırda həmin yaşayış binalarında digər təmir işləri davam etdirilir.

Alabaşlı qəsəbə 1 saylı uşaq bağçasında yenidənqurma və bərpa işləri başa çatdırılaraq istifadəyə verilmiş, Samux şəhər 4 saylı uşaq bağçasında təmir işlərinə başlanmışdır.

Rayonun Qarayeri və Alabaşlı qəsəbələrində, Sərkar, Ziyadlı, Hacıalılı, Fizuli, Seyidlər və Qədli kəndlərində Kənd İnvestisiyası Layihəsi çərçivəsində küçə və yolların təmirinə, park və xiyabanların yenidən qurulması layihələrinin icrasına başlanmışdır. Layihə çərçivəsində Qarayeri qəsəbəsində 20,5 km, Alabaşlı qəsəbəsində 4 km, Sərkar kəndində 11 km, Ziyadlı kəndində 13 km, Seyidlər kəndində 7 km, Qədli kəndində 5 km, Fizulu kəndində 13,5 km, Hacıalılı kəndində 11 km yolda təmir işləri başa çatdırılmışdır. Ziyadlı kəndində 1700 metr uzunluğunda içməli su xətti çəkilmişdir. Layihə davam etdirilir.

Bununla bərabər Zazalı, Tatlı, Qiyaslı, Lək, Çobanabdallı və Qarabağlar kəndlərində daxili küçə və yollarına balans verilərək, hamarlama işləri aparılmışdır.

Uzunluğu 7 km olan Qarayeri-Qaraarx avtomobil yolunun əsaslı təmiri başa çatdırılmış, həmin yola yeni asfalt örtüyü salınmışdır.

Rayon mərkəzinin Şəhidlər küçəsi və Alıncalı küçəsinin qalan hissəsində əsaslı təmir işləri aparılmış, burada olan su keçidləri dəyişdirilmişdir. Həmin küçələrə 1160 uzunluğunda 6 metr enində yeni asfalt örtüyü çəkilmişdir.

Rayon iqtisadiyyatının inkişafında da mühüm rol oynayan sahibkarlığın inkişafına rayonda xüsusi diqqət verilir və təsadüfi deyildir ki, rüb ərzində 363 yeni sahibkarlıq subyekti fəaliyyətə başlamışdır ki, onlardan da 25 hüquqi şəxsdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin aradan qaldırılması məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri taxılçılıq təsərrüfatının yaradılması məqsədi ilə "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət üçün 5000 ha münbit torpaq ayrılmışdır. Cəmiyyət tərəfindən təsərrüfatda çalışacaq maşın-mexanizmlər gətirilmişdir. Həmin sahənin suvarılma sisteminin qurulması "Abkon" MMC şirkəti tərəfindən icra edilir. 13 km əsas su xətti çəkilmişdir. Kompleksin idarə edilməsində istifadə olunacaq yardımçı binaların tikintisi davam etdirilir. Həmin ərazidə 3000 hektar qarğıdalı əkilməsi həyata keçirilmişdir. Bu isə öz növbəsində yüzlərlə yeni iş yerinin yaradılmasına imkan verir.

Ölkə Prezidenti cənab İlham Əliyevin pambıqçılığın, tütünçülüyün və baramaçılığın inkişafına dair tapşırıqları ilə əlaqədar Prezident Administrasiyasında keçirilmiş müşavirədə verilmiş tövsiyələr İcra hakimiyyətində geniş təhlil olunmuşdur. Tövsiyələrə uyğun olaraq cari ildə rayonun Qırmızı Samux qəsəbəsi ərazisində 300 hektar sahədə "Qarabağ region" MKT MMC tərəfindən pambıq səpini aparılmışdır ki, həmin sahədə normal çıxış alınmış və birinci kompleks becərmə işləri başa çatdırılmışdır, hər hektardan təxminən 27-30 sentner məhsul gözlənilir. Həmin sahələrin becərilməsinə 200 nəfərdən artıq yerli sakin mövsümü işçilər cəlb edilmişdir. Əkilmiş pambıq sahəsinin 260 hektarının suvarılması üçün "Pivot" müasir suvarma sistemindən istifadə edilir. 40 hektar sahə şırım üsulu ilə suvarılır. Rayonda pambıq əkinlərinin artırılması və bu işə fermerlərin marağını artırmaq üçün geniş izahat işləri aparılır.

Sarıqamış kəndi ərazisində iribuynuzlu mal-qara üçün nəzərdə tutulmuş heyvandarlıq kompleksində işlər davam etdirilmişdir. Hazırda kompleksdə saxlanılan iribuynuzlu cins mal-qaranın sayı 3000 başdan çoxdur. Burada gün ərzində 32-35 ton süd istehsal olunur.

Rayona investisiya qoyuluşuna cəlb olunmuş "Ulduz 2011" MMC-yə Ceyrançöl və Bozdağ massivlərindən 2010 hektar torpaq sahəsi ayrılmışdır. Həmin torpaqlardan 1600 hektarının təyinatının dəyişdirilərək əkin məqsədi ilə istifadə edilməsi üçün Nazirlər Kabinetinə və Əmlak Məsələləri Dövlət Komitəsinə müraciət olunmuşdur. Təyinatının dəyişdirilməsi nəzərdə tutulan torpaq sahəsinin 1100 hektarında taxıl, 500 hektarında isə intensiv üsulla kartof əkilməsi nəzərdə tutulur. Burada 104 nəfər daimi işlə təmin olunacaqdır.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən inşa etdirilən "Aqroenerji" kompleksinin tikintisində işlər sürətləndirilmişdir. Burada 9 min günəş paneli quraşdırılmışdır ki, bu da 2,8 meqavat günəş enerjisinin istehsal olunmasına imkan verəcəkdir. Hazırda yaxın ərazisində yerləşən obyektləri enerji ilə təmin edir. Kompleksin inzibati binasının daxilində aparılan işlər başa çatmaq üzrədir.

Rayon iqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. 2016-cı ilin məhsulu üçün bütün təsərrüfat kateqoriyaları daxil olmaqla 10816 hektar sahədə şum qaldırılmış, 7920 hektar sahədə payızlıq taxıl səpini aparılmışdır. Bundan 3455 hektarı buğda, 3999 hektarı dən üçün arpa, 466 hektarı xəsil məqsədi ilə əkilmişdir. 2016-cı ilin 01 iyul tarixinə 5772 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır ki, bundan 415 ha çoxillik otlar, 651 ha şəkər çuğunduru, 1715 ha günəbaxan, 196 ha kartof, 764 ha tərəvəz, 127 ha yazlıq buğda, 481 ha yazlıq arpa, 362 ha bostan, 484 ha qarğıdalı, 330 ha pambıq, 18 ha paxlalılar, 207 ha toxum məqsədilə tərəvəz, 22 ha çəltik əkilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayon ərazisində 51,3 faiz və yaxud 1958 ha çox əkin səpini aparılmışdır. Hesabat dövründə rayon ərazisində 8147 ha taxıl sahəsində 24022 ton taxıl məhsulu yığılmışdır ki, orta məhsuldarlıq 29,5 sentner təşkil edir. 8147 ha taxıl sahəsinin 3582 hektarında buğda biçini, 4565 hektarında arpa biçini aparılmışdır. 3582 ha buğda sahəsindən 10641 ton, 4565 ha arpa sahəsindən 13381 ton arpa məhsulu yığılmışdır.

2016-cı ilin 1 iyul tarixinə iribuynuzlu mal-qaranın sayı 23666 baş olmuşdur. Bundan ana inək və camışların sayı 11959 baş təşkil edir. Qoyun və keçilərin sayı 168381 baş təşkil edir. Hesabat dövründə 2645 ton diri çəkidə ət, 12429 ton süd, 3891 min ədəd yumurta, 318 ton yun istehsal olunmuşdur.

Rayon əhalisinin dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün 2016-cı ilin birinci yarısında 24 ədəd müxtəlif güclü transformator əsaslı, 56 ədədi isə cari təmir edilərək istismara verilmişdir. Qəsəbə və kəndlərdə 57 ədəd 0.4 kv-luq və 142 ədəd 10 kv-luq istismara yararsız dayaqlar yeni dayaqlarla əvəz edilmişdir.

Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüşdür. Hazırda rayonun 29 yaşayış məntəqəsində mavi yanacaqdan istifadə olunur.

Əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2016-cı ilin 6 ayı ərzində əhaliyə xidmət edən 16 ədəd subartezian quyusundan 12-si ədədi saz vəziyyətə gətirilərək abonentlərin istifadəsinə verilmişdir.

Samux rayonunda 17 avtomat telefon stansiyası fəaliyyət göstərir ki, bu da rayonun bütün yaşayış məntəqələrində telekomunikasiya xidmətlərinin göstərilməsinə imkan verir. Rayonun avtomat telefon stansiyalarının ümumi montaj tutumu 8320 nömrə təşkil edir. Rayonda əhaliyə poçt rabitəsi xidməti "Azərpoçt" MMC-nin Samux filialı tərəfindən həyata keçirilir. Hazırda əhaliyə 75-dən çox poçt xidmətləri göstərilir.

2016-cı ilin birinci yarımilində Samux Rayon İcra Hakimiyyəti başçısı aparatına ümumilikdə 339 ərizə, təklif və şikayət daxil olmuşdur. Müraciətlərdən 165-i yerli sakinlərdən, 174-ü isə respublikanın yuxarı təşkilatlarından olmuşdur. Daxil olmuş ərizələrdə qaldırılan məsələlər yerində araşdırılmış, vətəndaşların haqlı tələbləri vaxtında həll edilmişdir.

Çıxışının sonunda rayon rəhbəri bildirdi ki, rayon üçün xarakterik olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, rayonda aqrar sənayenin, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, ümumiyyətlə yerli icra hakimiyyətləri qarşısında qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bütün qüvvələr səfərbərliyə alınaraq, uğurla icra olunacaqdır. Məruzə ətrafında, Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Gülağa Bağırov, Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Rahil Həsənov, Rayon Elektrik Şəbəkəsinin rəisi Rasim Qasımov məlumat xarakterli çıxış etdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**